**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN AİLƏDƏ MƏKTƏBƏHAZIRLIQ İŞİNİN PEDAQOJİ ƏSASLARI

| | |
|---|---|
| İxtisas: | 5804.01 Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |
| Elm sahəsi: | Pedaqogika |
| İddiaçı: | **Aytən Surxay qızı Eynalova** |

Fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2024**

Dissertasiya işi Bakı Mühəndislik Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər — Pedaqoji elmlər doktoru, professor
**Əjdər Əbdülhüseyn oğlu Ağayev**

Rəsmi opponentlər: — Pedaqoji elmlər doktoru, professor
**Akif Nurağa oğlu Abbasov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Heydər Allahyar oğlu Cəfərov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Ruhəngiz Məmməd qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: __________ pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının elmi katibi: __________ pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri: __________ pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Son dövrlərdə dünya ölkələrində, o cümlədən, Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqların masştabı genişlənmiş, yeni məzmun almağa başlamışdır. Bu uşaqlar tam normal həyat sürmək imkanı, ümumi inkişaf pozğunluğuna malik, müəyyən zehni və fiziki problemi daşıyan şəxslərdir. Bildiyimiz kimi, fiziki, əqli və ya psixi pozğunluğu baxımından cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu səxslərin həyatda yasamaq imkanları məhdud olur. Onları cəmiyyətin həssas qrupları sırasına daxil edilirlər. Reabilitasiya xidmətlərinin təkmil olmaması, habelə təhsil və peşə baxımından istiqamətləndirmə xidmətlərinin göstərilməməsi səbəbindən bu insanlar əmək fəaliyyəti ilə məşğul olmaq və müstəqil həyat tərzi sürmək imkanlarından uzun müddət məhrum ola bilirlər.

XX əsrin 90-cı illərindən etibarən Müstəqil Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (10.12.1948), Uşaq Hüquqları Bəyannaməsi (20.11.1959) və BMT-nin qəbul etdiyi "Əlil İnsanların Hüquqlarının Qorunması üzrə Beynəlxalq Konvensiya"sına (13.12.2006) qoşularaq Qeyri-Hökumət Təşkilatları və müxtəlif Vətəndaş Cəmiyyəti İnstitutları ilə birlikdə araşdırmalar aparmış, bir sıra mühüm islahatlar həyata keçirmişdir.

Azərbaycan Respublikası "Əlil İnsanların Hüquqlarının Qorunması üzrə Beynəlxalq Konvensiya"ya qoşulmaq barəsindəki 2 oktyabr 2008-ci il tarixli qanunu imzalamaqla xüsusi qayğıya ehtiyacı olan insanların sosial vəziyyətinin yaxşılaşdırılması və onların cəmiyyətə inteqrasiyası istiqamətində mühüm vəzifələri müəyyənləşdirdi.

Səmərəli şəkildə aparılan işlər xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaq və onların ailələrinin müdafiəsini, gücləndirir. Bu da onların cəmiyyətə daha çox inteqrasiya olunmasına, dövlət büdcəsinin sosial yükünün azalmasına və s. kimi müsbət nəticələrə gətirib çıxara bilir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlann cəmiyyətə inteqrasiya olunmasında onların təhsil prosesindəki iştirakı məsələsi də diqqətdən kənarda qalmamışdır. "Sağlamlıq imkanları məhdud

şəxslərin təhsili" (Xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu 2001-ci ildə qəbul edilmişdir. Burada xüsusi təhsil sahəsində dövlətin vəzifələri müəyyənləşdirilmiş, sağlamlıq imkanları məhdud şəxslərin, onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin xüsusi təhsil sahəsində hüquq və vəzifələri öz əksini tapmış, xüsusi təhsilin təşkili, xüsusi təhsil sisteminin idarə olunması təsbit edilmişdir. Şübhəsiz ki, bu proses xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbə hazırlıq işinin təşkilindən birbaşa asılıdır. Dövlət səviyyəsində xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların təhsil almalarına kömək etmək məqsədilə xüsusi tədris və inkişaf proqramlarının işlənib hazırlanması həyata keçirilir.

Azərbaycanda "İnklüziv təhsil layihəsi"nin icrasına 2005-ci ildən start verilmişdir. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli 20 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasında Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili"nin təşkili üzrə İnkişaf Proqramı təsdiq edilmişdir. Xüsusi təhsilin köməyi ilə daima xüsusi qayğıya ehtiyac duyan uşaqlar kollektivə uyğunlaşır və cəmiyyətə inteqrasiya edirlər. Bu da uşaqlarda özünə inam hissini formalaşdırır, cəmiyyətin digər üzvləri kimi bərabərhüquqlu şəxsiyyət olaraq yetişmələrinə təkan verir. Digər tərəfdən də bu addımın atılması gələcəkdə onların məşğulluq kimi problemlərinin də aradan qaldırılmasına yardımçı olur.

Dayanmadan artan xəstəliklər daim məktəbi, ailələri sarsıdan problemə çevrilmişdir. Bu problemin həlli o qədər də asan cərəyan etmir və tezliklə aradan qaldırmaq zərurətini də ortaya qoyur. Bunun üçün elmi ədəbiyyatları dərindən öyrənmək, onları təhlil etmək, problem baxımından zəruri olanların mənimsənilməsinə və onların aradan qaldırılması texnologiyasına yiyələnmək əsas məsələlərdən biridir. Araşdırılan problem məsələnin gündəmə gətirilməsi çox böyük aktuallıq kəsb edir.

Tədqiqatı aktual edən məsələlərdən biri də məktəb və ailənin bu problemin həllində birgə fəaliyyətinin əlçatanlığını görə bilməməkdir. Gərgin əmək fəaliyyəti ilə məşğul olan valideynər çox halda ailədə xüsusi qayğıya ehtiyacı olan övladlarının böyüdüyünü görə bilmir, onların yalnız maddi təminatına yönələ bilirlər.

Valideynlərin pedaqoji baxımdan maariflənməsinin zəruriliyi çox halda kölgədə qalır. Bu baxımdan da belə tədqiqatların aparılmasına zərurət yaranır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlar sırasında autizm sindromlulular çoxluq təşkil edir. Autizm sindromlu uşaqlarla aparılan təlim işinin pərakəndə deyil, xüsusi bir proqramla həyata keçirilməsi, uşağın ehtiyacına uyğun formada onun tərtib edilməsi çox zəruri məsələlər sırasındadır. Aparılan araşdırmalar da bu problemin icrasını zəruri məsələ kimi gündəmə gətirmişdir. Elə bu baxımdan da tədqiqat işi aktuallığı ilə fərqlənən problemlərdən biridir. Son illər dünyanın hər tərəfində sürətlə yayılan autizm, artıq dünya əhalisinin bir faizindən çoxunda özünü təzahür etdirir. Əhatə dairəsi sürətlə genişlənən belə sindromlu xəstəliklər bu istiqamətdə tədqiqatların aparılmasını aktuallaşdırır. Autizmlər və xüsusi qayğıya ehtiyacı olan şəxslər mürəkkəb orqanizm kimi özünü cəmiyyətdə birüzə verir. Son vaxtlar autizm sindromlu uşaqların artması ilə bu sferaya olan maraq və diqqət də artmışdır.

Təbiidir ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların məktəbə hazırlanmasında ailə böyük qüvvədir. Təməli ailədə qoyulmuş tərbiyə gələcəkdə onların əldə edəcəkləri uğurları, şəxsiyyət kimi formalaşmaları, ictimai həyatda iştirak etmələri əhəmiyyətli dərəcədə özünü təzahür etdirir. Çünki ailə məktəbəqədər dövrdə ilk məktəb, valideynlər isə uşağın müəllimləridir. İlk psixoloji və tibbi yardımı belə uşaqlar ailələdə alırlar. Valideyn və müəllimlərin ümumi səyləri uşaq haqqında məlumatların əldə olunmasına, onların davranışı, rəftarı, münasibətləri ilə bağlı fikir və mülahizələrin bölüşdürülməsinə, ən əsası, uşağın böyüməsi və inkişafı üçün daha əlverişli şəraitin yaradılmasına yönəldilir. Hazırda xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlanmasında böyük rol oynayan korreksiya-inkişafetdirici fərdi təlim proqramları valideynlər və mütəxəssislərlə birlikdə hazırlanır. Dövlət xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbəhazırlıq prosesinin təşkilində valideynlərin yardımçılarındandır. Dünya təcrübəsinə əsaslanaraq dövlət, həmçinin özəl sektorda fəaliyyət göstərən əməkdaşların inkişafı genişləndirilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailələri xüsusi uşaq bağçaları,

psixoloji reablitasiya mərkəzlərinin köməyindən istifadə edirlər. Azərbaycanda Birgə və Sağlam ictimai birliyi, Birgə YardımTəşkilatı (UAFA) və Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, “Autizm” Deffektoloji və Psixoloji Yardım Mərkəzi, BMT-nin Uşaq Fondu, TİSA (Beynəlxalq məktəb), PM Akademiya, Müasir Psixologiya Mərkəzi, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi, “Narınc” Uşaq Psixologiya Mərkəzi, “Loqos” Psixoloji və Nitq İnkişafı Mərkəzi kimi tədris və sağlamlıq mərkəzləri xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların həyata və cəmiyyətə uyğunlaşmasında, məktəbəqədər təhsil və təlimində ailənin yaxından iştirakını əlçatan edir.

2 mart 2018-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili” qaydasını təsdiqləməsi ailə tipli uşaq qaygı mərkəzlərində xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların da tərbiyə və təhsilinin düzgün istiqamətlənməsinə imkan yaradaraq valideynlərin yaxın köməkçisi oldular.

Əldə edilən nailiyyətlərlə yanaşı, Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işinin təşkilində hələ də bir sıra çətinliklər özünü təzahür etdirir. İlk öncə belə uşaqlarla  müvafiq tədbirlər, məşğələlər, xüsusi rejim-pəhriz, xüsusi reabilitasya üsullarına ehtiyac duyulur. Çətinliklərin əsasında dayanan məsələlərin biri ondan ibarətdir ki, özəl psixoloji-reabitasiya mərkəzlərinin ödənişli, həm də müalicə-bərpa ilə bağlı təklif olunan qiymətlərin yüksək olmasıdır. Bu da təbiidir ki, valideynləri bu işə az-çox maddi vəsait sərfetdiklərindən onların narahatlığına səbəb ola bilir. Uşaqlarının bir sıra psixoloji xəstəliklərinin, xüsusilə, autizm spektr pozuntusunun təyin edilməsində çətinlik çəkən valideynlərin sayı da az deyildir. Belə valideynlərin maariflənmələrinə böyük ehtiyacı vardır. Autizm sindromlu uşaqların təlim və tərbiyəsində, xüsusilə də məktəbəqədər hazırlığında həkim, psixoloq-pedaqoqların, o cümlədən ailədə valideynlərə yardımçı ola biləcək elmi-pedaqoji, elmi-metodik vəsaitlərin sayının az olması təəssüf doğuran məsələlərdəndir.  Ailədə kiçikyaşlı xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu

uşaqların məktəbəqədər təhsil sahəsində tətbiq edilən nümunəvi vasitələrin seçilməsinə və təcrübədən keçmiş səmərəli vasitələrin mütəxəssislər tərəfindən təqdimatına hər zaman ehtiyac duyulmuşdur.

Tədqiqat işində də xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə təhsilə hazırlanması məsələləri diqqətdə saxlanılmış, problemin bu istiqamətdə araşdırılması vacib məsələ kimi qarşıya qoyulmuşdur. Təsadüfi deyildir ki, da elmi işin "Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məkətəbəhazırlıq işinin pedaqoji əsasları" adlandırılması məqsədəuyğun sayılmışdır.

**Tədqiqatın obyekti**. Xüsusi qayğıya ehtiyacı olan autizm sindromlu uşaqların ailədə məktəbə hazırlanması prosesidir.

**Tədqiqatın predmetini** isə xüsusi qayğıya ehtiyacı olan autizm sindromlu uşaqların məktəbə hazırlanmasında ailənin gördüyü işlər təşkil edir.

**Tədqiqatın məqsədi**. Xüsusi ehtiyacı olan autizm sindromlu uşaqların ailədə məktəbə hazırlıq işi pedaqoji problem baxımından nəzərdən keçirib, ümumiləşdirmək, autizm sindromlu uşaqların ailədə məktəbə hazırlanmasından sistem halında istifadə etməyin imkanlarını elmi şəkildə əsaslandırmaq , bu sahədə fəaliyyət göstərənlərə müvafiq nəzəri və praktiki kömək göstərməkdir.

Tədqiqatın məqsədindən və elmi fərziyyəsindən çıxış edərək dissertasiyada aşağıdakı **vəzifələrin** həll olunmasına çalışılmışdır:

1. problemin mövcud pedaqoji, psixoloji və metodik ədəbiyyatda, eləcə də müasir ailə təcrübəsində vəziyyətinin araşdırılması;

2. problem baxımından ailənin məktəblə birgə işinin forma və istiqamətlərinin müəyyənləşdirilməsi;

3. Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq prosesinin ümumi xüsusiyyətləri haqqında məlumatın verilməsi;

4. Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq prosesinin nəzəri-metodoloji aspektlərinin təhlil edilməsi;

5. Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə məktəbəqədər təhsili və məktəbə hazırlıq prosesinin

səmərəli təşkilinin istiqamətlərinin müəyyən edilməsi;

4. Ailədə autism spektr pozuntulu uşaqların məktəbəhazırlıq işinin beynəlxalq təcrübə baxımından müqayisəli təhlilinin aparması;

5. Autizm spektr pozuntulu uşaqların məktəbəhazırlıq işinin təşkilində ailə, məktəbəqədər təhsil və reabilitasiya mərkəzlərinin roluna aydınlıq gətirilməsi;

6. Müasir dövrdə Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işinin təşkili yollarının müəyyənləşdirilməsi;

**Müdafiəyə təqdim edilən başlıca müddəalar.**

Dissertasiyanın əhatə etdiyi faktiki materiallarlarla, gündəmə gətirdiyi nəzəri və praktik məsələlərlə, həmçinin tədqiqatdan irəli gələn nəticə və təkliflərlə əlaqədar aşağıdakılar müdafiəyə çıxarılır:

- Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntusu olan uşaqların  məktəbəhazırlıq imkanlarına malik olması;
- Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntusu olan uşaqların və məktəbəhazırlıq işində ailənin böyük qüvvə olması;
- Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların məktəbəhazırlıq işində reabilitasiya mərkəzlərinin rolunun olması;
- Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların məktəbəhazırlıq işində xüsusi uşaq bağçalarının yeri;
- Autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işinin təşkili və beynəlxalq təcrübədən isfifadənin mümkünlülüyü;
- Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işinin təşkilinin mövcud vəziyyəti və yaranmış çətinliklər.

**Tədqiqatın metodoloji əsasını** dialektik metod, cəmiyyətin inkişaf qanunları təşkil edir.

**Tədqiqat metodları**. Tədqiqatın aparılmasında Azərbaycan Respublikasının sənədlərindən, Təhsil haqda Qanunlardan, sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunundan istifadə edilmişdir. Tədqiqat zamanı nəzəri təhlil, pedaqoji müşahidə, müsahibə, eksperiment və s. tədqiqat metodlarından istifadə olunmuşdur.

1. Nəzəri təhlil və tərkib. Problemin hansı səviyyədə tədqiq

edildiyini aydınlaşdırmaq üçün mövcud elmi-pedaqoji, psixoloji, fəlsəfi, metodik ədəbiyyat öyrənilərək təhlil edilmiş, ümumiləşdirmələr aparılaraq müvafiq nəticələr çıxarılmışdır.

2. Pedaqoji müşahidə. Təlim prosesində xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işinin təşkili, bu qrupa daxil olan uşaqların davranış və rəftarı, ünsiyyət tərzi, müəllimlərinə, valideynlərinə, həmyaşıdlarına, ətrafdakılara münasibətləri, onların ailədə məktəbə adaptasiya olunması məsələləri müşahidə olunaraq öyrənilmişdir.

3. Pedaqoji müsahibə. Bu iş xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların valideynləri ilə aparılmışdır.

4. Pedaqoji eksperiment Birgə və Sağlam İctimai Birliyinin Reabilitasiya Mərkəzində, "Loqos" Psixoloji və Nitq İnkişafı Mərkəzində, "Narınc" Uşaq Psixologiya Mərkəzində, PRİM Autizm və İnkişaf Mərkəzində, Kanner Autizm Mərkəzində mütəxəssislər, valideynlər və uşaqların iştirakı ilə aparılmışdır. Eksperimentdə 150 nəfər iştirak etmişdir.

Tədqiqat zamanı pedaqoji eksperimentin müəyyənedici, öyrədici və yoxlayıcı növlərindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların məktəbəhazırlıq işində ailənin rolu elmi-nəzəri cəhətdən araşdırılmaş, autizmin yaranma səbəbləri, onun yüngülləşdirilməsi yolları və imkanları müəyyənləşdirilmiş və ümumiləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. **Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatda irəli sürülmüş elmi müddəalar, yaradılmış iş sistemi xüsusi pedaqogika elminin yeni ideyalarla zənginləşdirə biləcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatdan çıxarılan nəticələr xüsusi məktəblər üçün dərslik, dərs vəsaitləri yazan, həmçinin, bu istiqamətdə tədqiqatlar aparan iddiaçıların araşdırmalarında bir mənbə olacaqdır.

**Aprobasiyası və tədqiqi.** Dissertasiya Bakı Mühəndislik Universitetində Pedaqogika kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın nəticələri Qafqaz Universitetində 2014-cü il 18-19 aprel tarixlərində keçirilən II Beynəlxalq müəllim yetişdirmə siyasəti

Konqresinin materiallarında ("Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqların (XQEU) təhsil problemi"), Bakı Dövlət Unversitetinin Psixologiya jurnalında (2013,No:4) ("Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqların (XQEU) təhsilə cəlb olunmasında sosial-psixoloji problemləri"), M.P. Draqomanov adına Kiyev Milli Pedaqoji Universitetinin Elmi Xəbərlərində (2018, seriya 5, No:62) ("Проблемы социализации детей с синдромом аутизма в Азербайджане"), 2018-ci il 27-28 aprel tarixlərində Bakıda keçirilmiş Gənc tədqiqatçıların II Beynəlxalq Elmi Konfransının materiallarında ("Fiziki Və Psixoloji Məhdudiyyəti Olan Uşaqların Tərbiyəsində Məktəbəqədər Xüsusi Təhsilin Rolu"), "İmpact Azerbaijan" jurnalında (Bakı, 2018,bur.29) (Autism in Azerbaijan and Steps Ahead), Bakı Mühəndislik Universitetinin jurnalının (Journals of Baku Engineering University) 2017-ciildə çap olunmuş 2-ci sayında (Azərbaycanda Autizm spektr pozuntulu Uşaqlarin Ailədə Məktəbəhazırlıq Prosesinin Təşkilində Dövlət-Özəl Sektor Əməkdaşlığı), 2018-ci il 29 mart-1 aprel tarixində Antaliyada keçirilmiş II. Beynəlxalq Erkən Uşaqlıqda Müdaxilə Konqresinin (II.Uluslararası Erken Çocuklukta Müdahale Kongresi) materiallarında ("Otizmli Çocuğa Sahip Bir Anneye Uzaktan Eğitimle Öğretme Becerisi Kazandırma") çap edilmiş məqalə və tezislərdə əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Bakı Mühəndislik Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi:** Dissertasiya giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin giriş hissəsi 7 səhifə, birinci fəsil 48 səhifə, ikinci fəsil 69 səhifə, nəticə hissəsi 3 səhifə, ədəbiyyat hissəsi 10 səhifədən ibarətdir. Dissertasiya işi ümumilikdə 144 səhifə, 242 530 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ÜMUMİ MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılmış, problemin elmi işlənmə dərəcəsi, işin məqsəd və vəzifələri, tədqiqatın obyekt və predimeti, dissertasiyanın fərziyyəsi,

tədqiqatin metodlarI, mənbələri, elmi yeniliyi, müdafiəyə təqdim edilən başlica müddəalari, tədqiqatın aprobasiyası şərh olunmuşdur.

**“Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbəhazırlıq işinin pedaqoji əsaslarının nəzəri metodoloji əsasları”** adlanan birinci fəsil özündə üç paraqrafı birləşdirir. Fəslin birinci paraqrafı “Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbəhazırlıq prosesinin xüsusiyyətləri” adlanır. Paraqrafda göstərilir ki, ailə cəmiyyətin əsas özəyi hesab olunur, uşağın formalaşmasında mühüm rol oynayır. O cəmiyyətin struktur vahididir. Ailənin ensiklopedik lüğətində göstərilir: “*Ailə öz təkrar olunmaz aləmi ilə inkişaf edən kiçik bir cəmiyyətdir. Bu kiçik cəmiyyətdə xalq, millət formalaşır və millətin, ölkənin səviyyəsi bu ailələrin səviyyəsindən asılıdır”*[1]

Paraqrafda eyni zamanda xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbəhazırlıq prosesinin ümumi xüsusiyyətləri araşdırılmış, xüsusi qayğıya ehtiyacı olan uşaqların inkişafı, cəmiyyətə inteqrasiyası ilə bağlı ailədə aparılan məktəbəhazırlıq işinin pedaqoji əsaslarına aydınlıq gətirilmişdir.

Uşaq, ailə vasitəsilə mənəvi dəyərlərə yiyələnir. Ailədə öz növbəsində şəxsiyyətlərarası münasibətlərin psixologiyasını ifadə edir. Valideynlərinin nüfuzu və rəhbərliyi şəxsiyyətin ailədə sosiallaşmasına və ailə daxilindəki münasibətlərin informalaşmasına təsir edir. Uşaqlarda oxumağa həvəsin yaradılması, onların məktəbə müsbət emosional münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi- sosial xüsusiyyətlərin formalaşdırılması məktəbə hazırlığın vəzifələrindən biridir.

Uşağın məktəbə hazırlığının təmin edilməsi onlarda müstəqillik, məsuliyyətlilik, fəallıq, təşəbbüskarlıq, başqalarını dinləmək və onlarla razılaşmaq, qaydalara əməl etmək, qruplarla işləmək, ünsiyyətcillik, özünə hörmət kimi xarakterik keyfiyyətlərini formalaşdırır. Lakin fiziki və psixoloji məhdudiyyəti olan uşaqlarda isə bu proses müxtəlif formalarda özünü təzahür etdirir. Fiziki inkişafın ləngiməsi də uşağın əqli fəaliyyətinə mənfi təsir göstərir. Belə uşaqların məktəb təliminə hazırlanmaları onların ünsiyyət,

---

[1] Gəncəli S. Ailə Ensiklopedik lüğət (iki cilddə). Bakı, Azərnəşr, II cild, 2011, s.

kommunikasiya hazırlıqları imkanından asılı olur. İstər dövlət, istərsə də özəl təhsil sahələrində əlilliyi olan, xüsusilə autism spektrli uşaqlara diqqət və qayğı hərtərəflidir. Təsadüfi deyildir ki, dünya miqyasında əlillərin digər uşaqlarla bir yerdə təhsil alması, xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiya olunması üçün dövlət miqyaslı işlər görülür, onlara optimal şərat yaradılır ki, bu da irəliyə atılan mühüm addımlardan biridir.

Fəslin ikinci paraqrafı **"Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbəhazırlıq prosesinin nəzəri-metodoloji aspektləri"** adlanır**.**

Paraqrafda göstərilir ki, xüsusi qayğıya ehtiyacı olan uşaq üçün korreksiyaedici, inkişafetdirici, bərpaedici funksiyaların çox böyük əhəmiyyəti vardır. Çünki bu funksiyalar onun psixofiziki və sosial statusunun yaranmasında mühüm rol oynayır. Ailənin də məqsədi sağlam, hərtərəfli inkişaf etmiş uşaqlar tərbiyə etməkdir. Sosial mühit kimi çıxış edən ailə xüsusi qayğıya ehtiyacı olan övladına hərtərəfli yardım və böyük sevgi göstərməklə bərabər, onun gələcək həyat tərzi və təhsili üçün şərait yaratmağa səy göstərir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə tərbiyə olunması xüsusi metodların olmasını zəruri edir. Bu metodlar onların davranış təcrübəsinin formalaşmasına, müstəqil həyat fəaliyyətinin təşkilinə, tam psixofiizioloji, əxlaqi və mənəvi inkişafının aktiv stimullaşdırılmasına kömək edir.

Bu tərbiyə metodlarına valideynlərin nümunəvi davranışı, inandırma, alışdırma, çalışdırma, tapşırma, tələb etmə (məcbur etmə), özünənəzarət, mükafatlandırma, cəzalandırma və s. daxildir. Tərbiyə də elə metodlar vardır ki, autist uşaqların psixologiyasına neqativ təsir göstərir. Bu sıraya cəza, məcbur etmə metodlarını daxil etmək olar. Belə ki, ailədə xüsusi qayğıya ehtiyacı olan – autism spektrli uşaqların tərbiyəsində cəza metodundan istifadə etmək onların xəstəliyinin ağırlaşmasına səbəb olur. Elə buna görə də metodların seçimi fərdi xarakter daşıyır. Uşağın fiziki məhdudiyyətinə olan münasibətlərinin əsasında tərbiyənin bir neçə modelini müəyyənləşdirmək mümkündür. İnkişafdan geri qalan uşağın ailə tərbiyəsinin qeyri-konstruktiv modelləri onun intellektual və şəxsi inkişafına xələl gətirir, əlavə psixoloji pozulmalara səbəb olur. Yalnız

valideynlər tərəfindən fiziki və psixoloji məhdudiyyətlərin adekvat və düzgün qiymətləndirilməsi övladın məqsədyönlü tərbiyəsinə təsir göstərər.

Erkən uşaqlıq dövründə autizmli uşaqları olan və digər inkişaf geriliyi olan uşaqları olan ailələrin müqayisəli təhlili göstərdi ki, autizmli uşaqlar ailədə digərlərinə nisbətən sərt, çətin vəziyyətlə üzləşməli olmayıblar. Autizmli uşaqların valideynləri "problemli" uşaqlar olan digər ailələrə nisbətən daha qayğıkeş və mehriban, uşaqlarına bağlı olurlar.

Reabilitasiya görmüş uşaqların əksəriyyətinin həyatı onlar üçün səmərəli olur. Korreksiya müəllimləri belə uğura nail olmaq üçün hər bir uşaqla məşğul olmağı bacarmalı, bu işdə ailəyə köməklik göstərməlidirlər. Evdə təhsilə cəlb olunan belə uşaqlar üçün valideynlər, psixoloq-pedaqoqlar, həkimlərlə birlikdə uşağın fəaliyyət planı hazırlamağı məqsədəuyğun sayırlar. Paraqrafda qeyd olunur ki, uşaqları düzgün fiziki hərəkətlər etməyə öyrətməli, onlar üçün uyğun gimnastika növü, ortopedik vasitələr seçməli, su ilə müalicəsi aparılmalı, massaj seansları təşkil olunmalıdır. Ailədə ilkin loqopedik işin başlanması böyük əhəmiyyət kəsb edir.

Fəslin üçüncü paraqrafı **"Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbəhazırlıq prosesinin təşkilində dövlət-özəl sektor əməkdaşlığının inkişafı məsələləri"** adlanır. Paraqrafda göstərilir ki, Azərbaycan Respublikasının qanunvericiliyində göstərildiyi kimi sağlamlıq imkanları məhdud olan şəxslərin tibbi-pedaqoji-psixoloji komissiyanın və tibbi-sosial ekspert komissiyalarının göstərdikləri xidmətlərdən ödənişsiz istifadə etmək hüququ vardır.

Ölkənin qanunvericiliyində xüsusi təhsil xidmətlərinə ehtiyacı olan uşaqlar üçün müxtəlif təhsil imkanları təklif olunur. Belə uşaqların tələbatını ödəmək üçün ev təhsili, inklüziv və inteqrativ sinif otaqları, xüsusi məktəblər və s. təhsil xidmətləri mövcuddur. Aparılan statistik araşdırmalar göstərir ki, ölkədə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 25 xüsusi məktəb və internat tipli məktəb fəaliyyət göstərir. Bunlardan 18-i internat tipli müəssisə və 7-si xüsusi məktəblərdir. Həmin müəssisələrdən 16 internat məktəbi Elm və Təhsil Nazirliyi sistemində, 2 əqli geriliyi olan uşaqlar üçün

internat məktəbi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemindədir. İnternat məktəblərindən 6-sı isə Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilir. Müvafiq qanunvericilik bazasının yaradılması nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkilinə əlverişli zəmin yaradılmışdır. Belə ki, 2001-ci ildə "Sağlamlıq imkanları məhdud uşaqların təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. "Qanunun icrasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Sağlamlıq imkanları məhdud şəxslərin peşə-ixtisas təhsili müəssisələrinə qəbulu Qaydasının təsdiq edilməsi haqqında" 2002-ci il 29 aprel tarixli 72 nömrəli, "Loqopedik xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2002-ci il 29 aprel tarixli 73 nömrəli, "Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamənin təsdiq edilməsi haqqında" 2002-ci il 29 aprel tarixli 74 nömrəli, "Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısının və evdə təhsilin təşkili Qaydalarının təsdiq edilməsi barədə" 2002-ci il 10 may tarixli 77 nömrəli, "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2002-ci il 10 may tarixli 78 nömrəli, "Sağlamlıq imkanları məhdud şəxslərin pulsuz xüsusi təhsil almaq Qaydasının təsdiq edilməsi haqqında" 2002-ci il 29 may tarixli 86 nömrəli, "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydalarının təsdiq edilməsi haqqında" 2002-ci il 29 may tarixli 87 nömrəli, "Stasionar şəraitdə təhsilin təşkili Qaydalarının təsdiq edilməsi haqqında" 2002-ci il 29 may tarixli 88 nömrəli qərarları qəbul edilmişdir."

2005-2009-cu illəri əhatə edən Tədbirlər Planında xüsusi qayğıya ehtiyacı olan uşaqların hərtərəfli (inklüziv) təhsilinin təşkili, ixtisaslaşdırılmış təhsil müəssisələrinin mövcud problemlərinin aradan qaldırılması, onların dinamik inkişafının təmin edilməsi, bu müəssisələrdə təhsil alan uşaqların sosial müdafiəsinin gücləndirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 622 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsil alanların sosial müdafiəsi Qaydası" məktəbəqədər yaşlı uşaqların təhsili ilə məşğul olan dövlət müəssisələrinə qəbul edilmiş uşaqların müəssisələrdə sosial müdafiəsi məsələlərini tənzimləyir.

Paraqrafda həmçinin qeyd edilir ki, autizm spektr pozuntusu daşıyan uşaqların məktəbəqədər təhsili valideynlərinin seçimi əsasında məktəbəqədər təhsil müəssisəsində, ümumtəhsil müəssisələrinin müvafiq strukturlarında və ailədə həyata keçirilir.

Ölkədə məkətəbəqədər təhsil sahəsində çalışa biləcək bir sıra bu kimi təşkilatlar mövcuddur. Probemli uşaqlar üçün məktəbəqədər təhsil müəssisələrinin yaradılması, idarə edilməsi, təlim proqramlarının həyata keçirilməsi, təhsil müəssisələrinə nəzarətin və monitorinqlərin aparılmasında Elm və Təhsil Nazirliyinə yardımçı olurlar. Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailə tipli təlim qruplarında tərbiyəyə cəlb edilməsi əhəmiyyətli rola malikdir. Bu tipli müəssisələr xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbəhazırlıq prosesinin təşkilində dövlət-özəl sektor əməkdaşlığının inkişafında mühüm əhəmiyyətə malikdir.

Kənd və şəhər tibb məntəqələri tərəfindən ailə tipli qruplarda olan uşaqlara tibbi yardım həyata keçirilir. Belə tipli qrupun yaradılmasına nail olduqda, yerli icra hakimiyyəti orqanı ailə tipli təlim qrupunun yaradılmasını, ən yaxın inzibati ərazidə fəaliyyət göstərən dövlət məktəbəqədər təhsil müəssisəsinə tapşırır. Ailə tipli hazırlıq qruplarının saxlanımasına xərclərin dövlət büdcəsi əsasında təşkil olunan məktəbəqədər təhsil müəssisəsinin maliyyələşdirilməsi müvafiq vəsaitlər əsasında həyata keçirilir.

Paraqrafda xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə məktəbəhazırlıq işinin təşkilinin prespektivləri aşkar edilərək, onlar haqqında ətraflı məlumat verilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların məktəbəhazırlıq tərbiyəsi valideynlərdən ailədaxili münasibətlərin yenidən qurulmasını tələb edir. Belə uşaqların davranışına aşağıdakı tələbləri verir:

- Valideynin qoyduğu vəzifəni diqqətlə dinləmək, başa düşmək və qəbul etmək;
- Diqqəti yayındırmadan və kənar fəaliyyətlərə qoşulmadan valideynlər tərəfindən təmin edilən təlim fəaliyyətlərini həyata keçirmək;
- Uşağın valideyninin iradlarına düzgün reaksiya vermək, özfəaliyyətini ona uyğun qurmaq.

Paraqrafdan aydın olur ki, uşaq fəaliyyətinin təmin olunması və bacarıqlarının formalaşması üçün valideynlərin məktəbəqədər dövrdə uşaqların inkişafının tənzimlənməsi, məktəbə hazırlığın təşkili qaydalarını təqdim etməklə keyfiyyətin təmin olunması, uşaqlarla işdə səriştəliliyin artırılması kimi bir sıra vəzifələrin həyata keçirilməsinə nail olur.

**"Xüsusi qayğıya ehtiyacı olan autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işinin təşkili"** adlı ikinci fəsildə Azərbaycanda autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq prosesinə aydınlıq gətirilmişdir. Fəslin birinci paraqrafı **"Azərbaycanda autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq prosesinin səmərəli təşkil edilmə istiqamətləri"** adlanır. Burada göstərilmişdir ki, autizm spektr pozuntulu uşağa valideynlik etmək o qədər də asan bir vəzifə deyil. Təbiidir ki, ailəyə köməklik edərkən bütün qüvvəni yalnız uşağa deyil, ailəyə yönəltmək lazımdır. Autizmli, eləcə də digər problemlərdən əziyyət çəkən uşağı olduğu kimi qəbul etmək, onu ailənin bir fərdi kimi görmək, uşağı güclü və zəif tərəfləri ilə birgə qəbul etmək lazımdır. Ailə mühitinin mənəvi-psixoloji cəhətdən qeyri-sağlam olması, ailə üzvləri arasında qarşılıqlı münasibətlərin qeyri-adekvatlığı uşağın koqnitiv sferası ilə yanaşı, ünsiyyət sferasının formalaşmasına da mənfi təsir göstərir.

Valideynlərin uşaqlara qeyri-normal yanaşma tərzi, onların şəxsi keyfiyyətlərindəki mənfi əlamətlər: prinsiplərə sadiqlik, həddindən artıq tələbkarlıq, səbrsizlik, yüksək iddialılıq, eqosentrizm, tez-tez təkrar edilən nevrotik vəziyyətlər, affektivlik (qışqırıqlar, təhdidlər, söyüşlər və s.), hər bir göstərişi sözsüz yerinə yetirməyə təhrik etmə, uşaqlara qarşı inamsızlıq, emosional kütlük və introvertlik kimi xüsusiyyətlər uşaqların valideynləri arasında qarşılıqlı sevgi və etibarın itirilməsinə səbəb ola bilir. Ailədə tez-tez baş verən uğursuzluqlar fonunda uşaqlar nevrotik reaksiyaların inkişafı üçün katalizatora çevrilən ağır psixoloji travma alırlar.

Ailə tərbiyəsində, ailə münasibətlərində baş verə biləcək nöqsanların qarşısının alınması məqsədilə valideynlərlə izahat işi aparılır, onlar ailə münasibətlərinin formaları ilə bağlı məlumatlandırılır.

Azərbaycanda autizmin müalicə və müayinə metodlarında aşkarlanan yeni tibbi-psixoloji, pedaqoji üsullar aşkarlanmış və onların tətbiqi bu spektri daşıyan uşaqların yaşam tərzinə müəyyən yüngüllük gətirmişdir. Birgə və Sağlam ictimai birliyi, Pm Akademiya, "Autizm" Deffektoloji və Psixoloji Yardım Mərkəzi, BMT-nin Uşaq Fondu, TİSA (Beynəlxalq məktəb), Müasir Psixologiya Mərkəzi, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, "Narınc" Uşaq Psixologiya Mərkəzi, "Loqos" Psixoloji və Nitq İnkişafı Mərkəzi kimi tədris və sağlamlıq mərkəzləri autizm diaqnozu qoyulmuş övladları olan valideynlərə yaxından kömək edir. Bu mərkəzlərdə xüsusi mütəxəssislərlə yanaşı valideynlərin də köməyindən istifadə olunur, onlarla geniş maarifləndirmə işləri aparılır.

Fəslin üçüncü paraqrafı **"Autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işi"** adlanır. Paraqrafda autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işi nin beynəlxalq təcrübə baxımından müqayisəli təhlili aparılmışdır. Autizm spektr pozuntusu bu gün mümkün qədər geniş yayılmış hadisədir. Bu psixoloji-irsi xəstəlikdən əziyyət çəkən insanların sayı hər il artmaqdadır. Bunu autizmin statistikası da təsdiq edir. "Autism Speaks" təşkilatının məlumatlarına görə, hazırda dünyada 67 milyon insan autizmdən əziyyət çəkir. Bu, dünyada son vaxtlar getdikcə daha çox diaqnozu qoyulan xəstəlikdir. Bu gün dünyada hər 68-ci uşaq (oğlanlar arasında hər 42-ci uşaq) autizm xəstəsidir".

Amerika və Avropada bu problem çoxdan meydana gəlmişdir. Məhz buna görə də belə insanlar üçün hər cür şərait yaradılır ki, onlar özlərini cəmiyyətin bərabərhüquqlu üzvü hesab etsinlər.

Autizmli insanların hüquqlarının müdafiəsi ilə aşağıdakı beynəlxalq təşki-latlar məşğul olurlar:

- Autizm üzrə Ümumdünya Təşkilatı.

Bu təşkilat dünyanın bütün hissələrində autizmli insanlara və onların ailələrinə köməklik məqsədilə 1998-ci ildə Lüksemburqda yaradılmışdır.

- Autizm-Avropa Beynəlxalq Assosiasiyası.

Üç-dörd ildən bir Assosiasiya autizmin problemləri üzrə konqres keçirir. Konqresin məqsədi valideynləri və mütəxəssisləri

birləşdirmək, autizm spektr pozuntulu insanların qayğısına qalmaq üçün vasitə və metodlar haqqında məlumatın verilməsidir.

"Dünyada autizm spektr pozuntulu insanlara kömək məqsədilə tətbiqi davranış analizi (applied behavioral analysis, ABA) və TEACCH terapiyası (Treatment and Education of Autistic Children and Children with Relative Communicative Handicap) metodlarından istifadə olunur. Bu metodların meydana çıxması Şimali Amerikada və Qərbi Avropada, bir qədər sonra isə dünyanın digər hissələrində autizm spektr pozuntulu uşaqlara köməyin müasir sisteminin əsası qoyuldu".

TEACCH çərçivəsində autizmli uşaqların psixoloji xüsusiyyətlərinə aid daha çox fundamental tədqiqatlar aparılmışdır. "XX əsrin son 20 ilində ABA və TEACCH proqramları ilə yanaşı, statistikaya görə uşaqlarda autizmin korreksiya edilməsi üçün 50 müxtəlif korreksiyaedici yanaşmalar tətbiq olunmuşdur.

Autizm spektr pozuntulu uşaqları olan ailələrdə iki milli federasiyası və çoxsaylı federasiyalar da mövcuddur. İlkin mərhələdə autizmin aşkar edilməsi məqsədilə pilot layihə ölkənin müxtəlif regionlarında tətbiq olunmuşdur.

Autizm üzrə strategiya tam və məhsuldar həyatın təmin olunmasına, autizm üzrə mütəxəssislərin hazırlanması və təlimi üzrə hərtərəfli şəraitin yaradılmasına, autizm üzrə yerli komissiyaların yaradılmasına, xidmətlərin planlaşdırılması və təqdim olunmasına, milli, yerli və regional yardım mərkəzlərinin yaradılmasına, autizm spektr pozuntulu insanların ailələrinin və qohumlarının bu prosesə qoşulmalarına yönəldilmişdir.

Bu məsələ dünya ölkələrinin də diqqət mərkəzində dayanan problemlərdəndir. Hazırda Fransada autizm spektr pozuntulu uşaqların ailələrdə məktəbə hazırlanmasında Autisme France, Sesame Autisme, Pro Aide Autismekimi 3 Milli Mərkəz yaxından iştirak edir.

Polşada belə uşaqların fərdi ev hazırlığı xüsusilə güclüdür. Ölkədə 14 mərkəzdə fəaliyyət göstərən Autistlərin Milli Assosiasiyası mövcuddur ki, bu təşkilat uşaqlar və onların valideynlərinə yardım edir.

İsraildə autizm spektr pozuntulu uşaqların valideynlərini birləşdirən Mərkəzi Ümumisrail Milli Assosiasiyası-ALUT fəaliyyət

göstərir.

İsveçdə isə hər vilayətdə bir Autizm mərkəzi mövcuddur. Bu mərkəzlər pedaqogika və psixoanalizin müxtəlif üsullarından, ABA, TEACCH kimi metodlardan istifadə etməklə autizm spektr pozuntulu uşaqlara yardım göstərir və onların sosial müdafiəsini gücləndirirlər.

2021-ci ilin məlumatlarına əsasən, ABŞ-da hər 44 nəfərdən biri autizm spektr pozuntusu diaqnozunu daşımaqdadır. 1970-ci illərə qədər autizm spektr pozuntulu insanlara yalnız qapalı tipli xüsusi müəssisələrə yerləşdirmək və ailələrinə maddi köməklik göstərməklə kifayətlənilirdi. Məktəblərə belə uşaqları qəbul etməyə məcbur edilənlərin yalnız 20%-ə qədəri ümumtəhsil məktəblərində oxuya bilərdilər. Bu sahədə ilk iş və irəliyə doğru atılmış ilk addım 1972-ci ildə Şimali Karolinada həyata keçirilən "Autizm və digər ünsiyyət çatmamazlıqları olan uşaqların müalicəsi və təhsili Proqramı" oldu. Bu ştatda hal-hazırda da ölkənin ən məşhur mütəxəssis hazırlama və köməklik mərkəzi fəaliyyət göstərir.

2014-cü ildə Rusiya Ümumdünya Səhiyyə Təşkilatının autizm spektr pozuntulu insanlara köməklik üzrə hazırlanmış sənədlərinə qoşulmuşdur. Bu sənədlər autzmin səmərəli diaqnostikasına, autizm spektr pozuntulu insanların təhsil almalarına, peşə hazırlığına, işə düzəlmə məsələlərinə yönəlmiş kompleks tədbirləri, konkret təcrübi addımları özündə əks etdirir.

Türkiyə Cumhuriyyətinin İstanbul və Antalya şəhərlərində fəaliyyət göstərən Autizm Mərkəzlərinin və Autizm məktəblərinin təcrübəsi də çox maraqlıdır. İstanbulda "Tohum Otizm Vakfi" beynəlxalq standartlarları tətbiq etməklə bu sahədə gözəl nəticələr əldə etmişdir. Tədqiqat işində bütün bunlar öyrənilib ümumiləşdirilmişdir.

"Autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işinin təşkilində ailə, uşaq bağçaları və reabilitasiya mərkəzlərinin rolu" adlanan üçüncü paraqrafda autizm spektr pozuntulu uşaqların ailədə məktəbə hazırlıq işinin təşkilində ailə, uşaq bağçalarının birgə fəaliyyətindən və bu işdə reabilitasiya mərkəzinin rolundan danışılır. Ailədə uşağın tərbiyəsi çox məsuliyyətli və çətin işlərdən biridir. Valideynlər öz diqqətlərini övladlarının normal böyüməsi və inkişafı üçün optimal şərait yaradılmasına yönəltməlidirlər. Uşağın tərbiyəsi

prosesinin yaxşılaşdırılması üçün daha səmərəli üsul və vasitələrin seçimi mövcuddur. Uşaqlara onların tələbatını ödəyən valideyn köməyi mərhələlərinə valideynlərin uşaqla müsbət münasibətlər atmosferini öz şəxsi nümunəsi ilə yaratması, onların uşağın davranışına nəzarət etməyə, onun seçimini görərək kömək etməsi, uşaqlara öz əməlləri haqqında dəyərli qərarlar çıxarmağa kömək etməsi, uşağın vəziyyətinin düzəlməsi üçün plan tərtib etməsi, valideynlərin öz nüfuzlarını saxlamaq naminə cəzadan uzaqlaşması daxildir. Valideynlərin üzərinə düşən ən çətin və məsuliyyətli iş isə autizm spektr pozuntusu daşıyan övladlarının tərbiyəsi və təlimidir. Ailədaxili münaqişələr uşaqlarda yaratdığı psixoloji problemlərin miqyasına görə genişdir. Bunlara onların koqnitiv, emosional və davranış sferaları aiddir. Autizmli uşaqların emosional sferasına ailədaxili münaqişələr neqativ yöndə təsir edir, onların psixoloji gərginliyin yaranmasına səbəb olur. Belə ailələrdə iqtisadi, sosial, psixoloji yük anada xüsusilə daha çox olur. Beləliklə, bu səbəbdən aparılmış tədqiqatlar göstərir ki, anaların uşağın gələcək həyatı ilə bağlı təşvişi hər zaman atalardan çoxdur. Qadınların həssaslığı, övladları ilə emosional bağın güclü olması, uşaqla daha çox zaman keçirməsi buna səbəb kimi göstərilə bilər.

Sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyəsi bir qayda olaraq, fərdi reabilitasiya proqramlarına uyğunlaşdırılıb ümumi məktəbəqədər təhsil müəssisələrində həyata keçirilir.

Lakin çox təəssüf ki, ağır dərəcəli autizm spektr pozuntusu daşıyan uşaqlar bu hüquqlardan məhrumdur. Bu işdə daha çox ailələrin roluna üstünlük vermək lazımdır. Valideynlər autizm spektr pozuntulu övladlarının məktəbəhazırlıq işində reabilitasiya mərkəzlərinin köməyindən istifadə edirlər. Autizmin reabilitasiyası ilə məşğul olan, ən qabaqcıl metodikalardan istifadə edən reabilitasiya mərkəzləri ilə qurulan əlaqələr ailələrə bu spektrdan əziyyət çəkən uşaqların gələcək həyata hazırlanmasında və ən zəruri bacarıqlarının aşılanmasında mühüm rol oynayırlar. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xüsusi təyinatlı məktəbəqədər müəssisələrin təşkili qaydaları respublikanın təhsil və səhiyyə orqanları tərəfindən birgə müəyyən edilir.

Paraqrafdan aydın olur ki, xüsusi qayğıya ehtiyacı olan (eşitmə, görmə, fiziki və qavrama bacarıqlarında çətinliyi olan və inkişafı yaş xüsusiyyətlərinə cavab verməyən) uşaqları bağçaya adaptasiya etmək və övladının ehtiyaclarına görə karyerasını yarımçıq qoyan valideynlərə dəstək olmaq məqsədilə yaradılan uşaq bağçaları da mövcuddur. Autizm spektr pozuntulu uşaqların bağçaya təyin olunması üçün valideynlər əvvəlcə həkim-psixiatra müraciət etməlidirlər. Autizm diaqnozunu yalnız həkim təyin edə bilər. Bundan başqa erkən müdaxilə üçün psixoloq, loqoped, fizio-terapevtin olması da məqsədəuyğun sayılır.

Azərbaycanda hazırda xüsusi qayğıya ehtiyacı olan, o cümlədən autizm spektr pozuntulu uşaqları qəbul edə biləcək "Bağçam" Uşaq bağçaları şəbəkəsinə daxil olan "İndigo" Xüsusi uşaq bağçası ("İndigo Special") fəaliyyət göstərir. Burada eşitmə, görmə, fiziki və qavrama bacarıqlarında çətinliyi olan, davranış problemləri müşahidə edilən, daun sindromlu və autizmli kimi xüsusi qayğıya ehtiyacı olan və inkişafı yaş xüsusiyyətlərinə cavab verməyən uşaqlar təlim və tərbiyə görə bilirlər. Autizm spektr pozuntusu olan məktəbəqədər yaşlı uşaqların hazırlanmasında mühüm rol oynayan reabilitasiya mərkəzləri də vardır. Azərbaycan Respublikasının "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Qanunu"a uyğun olaraq (2001), mürəkkəb və ağır çatışmazlıqları olan şəxslərin təlim-tərbiyəsi ilə əlaqədar müxtəlif profilli reabilitasiya mərkəzləri yaradılmışdır. Reabilitasiya mərkəzlərinin əsas vəzifəsi əlilliyi olan insanlar üçün ünsiyyət, özünəxidmət və sadə əmək vərdişlərinin formalaşdırılması, nöqsanların düzəldilməsi və fərdi təhsil proqramlarına uyğun olaraq dərslərin təşkilindən ibarətdir.

Autizm spektr pozuntusu olan uşaqlar üçün müstəqil yaşamaq, yaş dövrünün bir çox inkişaf mərhələlərinə dair bacarıqları əldə etmək və problemli olan davranışlarını aradan qaldıraraq həll etmək üçün reabilitasiya təhsili çox vacibdir. Bir sözlə, reabilitasiya təhsili, evdə təhsil, məktəbəqədər və məktəb təhsili, idman və bir çox ictimai fəaliyyətlər autizm spektr pozuntusu olan uşaqların inkişafı üçün vacibdir. Autizm spektr pozuntusu daşıyan uşaqları müxtəlif yaş mərhələlərində normal psixoloji ünsiyyət və davranışa malik olan

uşaqlarla müayinə və müqayisə etdikdə üzə çıxan keyfiyyətlər onların hökmən korreksiya etmək lazım gəldiyini zəruriləşdirir. Beləliklə, xüsusi qayğıya ehtiyacı olan uşaqlar ilə tipik inkişaf edən uşaqlar bir-birlərini daha yaxından tanımağı, yeni məlumatları mənimsəməyi və bir-biri ilə ünsiyyət qurmağı öyrənirlər.

Fəslin dördüncü paraqrafı **"Müasir dövrdə Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq işinin təşkilinin mövcud vəziyyəti"** adlanır. Göstərilir ki, Azərbaycanın qanunvericiliyində xüsusi təhsil xidmətlərinə ehtiyac duyan uşaqlar üçün müxtəlif təhsil imkanları təklif olunur. Əlilliyi olan uşaqlar bu və ya digər şəkildə təhsilə cəlb olunublar. Kəndlərdə yaşayan xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların təxminən 64%-i, şəhər uşaqlarının isə 44,4%-i evdə təhsil alır. Təhsil almaları onların gələcəkdə cəmiyyətə inteqrasiyasına və ehtiyaclarının ödənilməsinə kömək edəcəkdir. Aparılan tədqiqatlar göstərir ki, belə uşaqların tələbatını ödəmək üçün ev təhsili, inklüziv və inteqrativ sinif otaqları, xüsusi məktəblər kimi müxtəlif təhsil xidmətləri mövcuddur.

Xüsusi qayğıya ehtiyacı olmaq sağlamlığın əks vəziyyətidir. Belə vəziyyət xarici və daxili amillərin təsirindən orqanizmin quruluşunun, funksiyalarının zədələnməsi səbəbindən həyati sağlamlığının pozulmasıdır. Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların və onların valideynlərinin qarşılaşdıqları problemlərin aradan qaldırılması sahəsində müəyyən müsbət işlər görülməkdədir.

Ölkəmizdə inklüziv təhsillə bağlı bir sıra təşəbbüslər irəli sürülsə də hələ də orta məktəblərin əksəriyyətində belə uşaqlara çox az rast gəlirik. Onlar ən yaxşı halda evdə təhsilə cəlb edilirlər ki, bu da onların ictimaiyyətlə əlaqəsini kəskin surətdə məhdudlaşdırır.

Autizmli uşağın inkişafı üçün daha çox yarayan metod elə xüsusi yanaşma sistemdir ki, bu faktı nəzərə alınır və o maksimal şəkildə qeyri-fərqsiz diqqətin, təqlidin, qəbulun və yadda saxlamanın imkanlarına istiqamətlənir. Azərbaycanda qeyri-rəsmi stastistikaya əsasən ölkəmizdə təxminən 5000-ə yaxın uşaq autizm spektr pozuntusundan əziyyət çəkir. Autizmin vaxtında aşkarlanmaması

mövcud problemi bir az da çətinləşdirir. Dövlət tərəfindən araşdırma və bərpa mərkəzləri yaradılmamışdır. Yalnız xüsusi təhsil mərkəzləri fəaliyyət göstərməkdədir.

Azərbaycanda bir başa autizmlə bağlı məktəblər yoxdur. Həmin uşaqlar başqa nevroloji problemli uşaqlarla birlikdə təhsil alırlar. Digər sağlamlıq imkanları məhdud uşaqlarla yanaşı autizm spektr pozuntulu uşaqların inklüziv təhsilə cəlb edilməsi ilə bağlı tədbirlər planının daha geniş şəkildə həyata keçirilməsi çox zəruridir. Xüsusi bağçaların, məktəblərin olmaması autizmli uşağı dörd divar arasında qalmağa məcbur edir.

Ölkənin rayonlarında xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların ailələri mövcud xəstəlik və psixoloji problemin həlli sahəsində nə iş görməli olduğunu bilmir. Bu isə rayonlarda həmin uşaqların məktəbə hazırlığına maneçilik törədir və onların təhsildən kənarda qalmalarına səbəb olur.

Azərbaycanda xüsusilə, autizm spektr pozuntulu uşaqların hüquqları və onların müdafiəsi sahəsində qanunlarda boşluqlar mövcuddur. Autizm problemi ilə bağlı kütləvi informasiya vasitələrində geniş təbliğat işləri aparılmır, mütəxəssislərin iştirakı ilə xüsusi verilişlər hazırlanmır. Şübhəsiz ki, belə olduğu halda valideynlərin xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu övladları ilə ünsyyətlərində çətinlik yaranır. Çox yaxşı olardı ki, sağlamlıq vəziyyətinə görə təhsil müəssisəsində təhsil almaq imkanı olmayan məktəbəqədər yaşlı uşaqlar üçün evdə ailə psixoloq- pedaqoqlarının təyin olunması mümkün olardı və bu beləcə uşaqların məktəbə hazırlaşmalarında mühüm rol oynaya bilərdi. Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqların ailələri böyük mənəvi, maddi və inzibati çətinliklərlə üzləşirlər ki, bu da valideynlərin övladları üçün təhsil imkanlarını səmərəli şəkildə axtarmaq imkanlarını məhdudlaşdırır. Mövcud dövlət və qeyri-hökumət təşkilatlarının sağlamlıq imkanları məhdud uşaqların problemlərinə hər tərəfli yanaşmaq imkanı yoxdur. Sağlamlıq imkanları məhdud olan şəxslərin məktəbə hazırlığı işində təlim-tərbiyəsi, sağlamlığının mühafizəsi və bərpası üçün müvafiq şərait yaratmaq məqsədilə təşkil edilməsi sahəsində aparılacaq işlərə hələ çox ehtiyac vardır.

Fəslin beşinci paraqrafı **“Eksperimentin təşkili, aparılması və nəticələri”** adlanır.

Tədqiqatda göstərilir ki, eksperimentin düzgün təşkili və aparılması xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqlarla işləyən mütəxəssislərin peşə hazırlığından, bilik səviyyəsindən, uşaqlar və valideynlərlə münasibət qurma bacarığından çox asılıdır. Bu zaman yaranmış şəraitə, vəziyyətə görə düzgün hərəkət etmək məharəti mühüm rol oynayır. Öz-özünə nəzarət bu sahədə çalışan mütəxəssislərə imkan verir ki, daha təsirli və faydalı vəsaitlər seçsin.

Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqlarla aparılan eksperiment Birgə və Sağlam İctimai Birliyinin Rebilitasiya mərkəzində, “Loqos” Psixoloji və Nitq İnkişafı Mərkəzində, “Narınc” Uşaq Psixologiya Mərkəzində, PRİM Autizm və İnkişaf Mərkəzində, Kanner Autizm Mərkəzində aparılmışdır. Eksperimentdə 150 nəfər iştirak etmişdir.

Aparılan sorğuların etibarlılıq göstəricisi 83.0 olmuşdur. Bu da 83% cavabların reallığı tam əks etdirdiyini ifadə edir. Qeyd etmək lazımdır ki, sosial elmlərdə 83% nəticə çox yaxşı hal kimi qəbul edilir və anketin etibarlı olduğunu göstərir.

Sorğuya cəlb olunan valideynlərin cavablarından aydın olmuşdur ki, autizmin yüngül və orta formalarında uşaqların təfəkkür, maraq, davranış və nitqlərində mövcud məhdudiyyətləri aradan qaldırmaq mümkündür və bu istiqamətlərdə ailələrdə aparılan işlər onların məktəbə hazırlanmalarında mühüm rol oynaya bilər.

Beləliklə, tədqiqat işində qoyulan mövzunun təhlili və araşdırılması göstərdi ki, Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqlarla aparılan tibbi, pedaqoji-psixoloji bərpa işləri mövcud olsa da, autizm spektr pozuntulu uşaqlarla işdə xüsusilə bir sıra problemlər mövcuddur. Onların aradan qaldırılması imkanları da vardır.

Autizm spektr pozuntulu uşaqların təlim-tərbiyəsi həyata keçirildiyi zaman ailə ilə bərpa və psixoloji mərkəzlərdə əlaqənin yaradılmaması, valideynin psixoloq-pedaqoqa və digər mütəxəssislərə dəstəyinin olmaması, valideynlər arasında maarifləndirmənin zəif olması, ailənin autizm spektr pozuntulu

övladlarının maddi və mənəvi ehtiyaclarının ödənilməsindəki çətinlik kimi önə çıxan bir sıra amillər hökmən aradan qaldırılmalıdır.

Dissertasiyada aşağıdakı **nəticələrə** gəlinmişdir:

1. Məktəbə hazırlaşan hər hansı bir uşağın həm anatomik həm də fizioloji inkişafı diqqət mərkəzində olmalıdır. Fiziki inkişafda görülən ləngimələr eyni zamanda uşağın zehni fəaliyyətini də məhdudlaşdırır. Fiziki məhdudiyyətli və autizm spektr pozuntulu uşaqların təlim prosesi çox çətindir. Uşaq təlim prosesində tez yorulur və təlimə həvəsi azalır.

2. Nitqin və məntiqi təfəkkürün zəif inkişafı eşitmə məhdudiyyətli uşaqlarda elə bir vəziyyət yaradır ki, onlar bu və ya digər biliyi formal mənimsəyirlər. Görmə məhdudiyyətli uşaqlarda isə vəziyyət başqa cür olur. Onlar əşya və hadisələri görmür, əşya və hadisələr haqqında deyilənləri eşidir və cisimlərə toxunmaqla, onların əlamətləri haqqında təsəvvür əldə edirlər. Görmə məhdudiyyətli uşaqlarda eşitmə və toxunma hissləri güclü inkişaf etmiş olur. Autizm spektr pozuntulu uşaqlar öz-özünə qapanır, real həyatdan uzaqlaşırlar. Onların yaşıdları və ümumiyyətlə, ətrafdakılarla münasibətlərində, nitq və ünsiyyətində, təxəyyülündə pozuntu müşahidə olunur.

3.Autizm özünü uşaqlarda ilk olaraq 2-4 yaşlarında göstərir. Belə uşaqların fəaliyyətləri məktəbəqədər təlim və təhsildə aparılan müxtəlif məşğələlər zamanı onların ailələri tərəfindən qiymətləndirilməli, dəstəklənməli və inkişaf etdirilməlidir.

4.Azyaşlı uşaqlar hər gün gündəlik həyatlarında problemləri həll etmək imkanı əldə edirlər. Valideynlər uşaqları diqqətlə müşahidə etməklə, peşəkarların köməyi ilə övladlarının sosial, koqnitiv, motorika və emosional təcrübələrindən istifadə edərək problemlərin həllinə və ömür boyu öyrənmədə təsirli olan strategiyaların hazırlanmasına kömək edə bilərlər.

5. Psixoloqlar, müəllimlər, həkimlər və valideynlər məktəbəqədər uşaqların sağlamlığı və tərbiyəsi məsələlərində daim əməkdaşlıq etməlidirlər ki, bu əməkdaşlığın da mühüm cəhəti ailə tərəfindən xüsusi qayğıya ehtiyacı olan və ya autizmli uşaq haqqında məlumat verməsidir. Mütəxəssislər sorğudan istifadə edərək valideyndən uşaq haqqında məlumat toplayırlar. Açıq ünsiyyət

müxtəlif inkişaf sahələrində biliklərin müşahidəsi və qiymətləndirilməsi üçün ilkin şərtdir. Səhhəti əl vermədiyi üçün təhsil müəssisəsindəki təhsil prosesinə cəlb oluna bilməyən şəxslərə təhsil müvafiq təhsil müəssisəsi tərəfindən evdə təşkil edilir.

6. Xüsusi qayğıya ehtiyacı olan və autzm spektr pozuntulu uşaqları qorumaq və ona həyat üçün zəruri dəyərləri qazandırmaq işi ilk növbədə ailənin üzərinə düşür. Ailədə valideynlərin şəxsi nümunələri və istifadə etdikləri təlim-tərbiyə üsulları ailə münasibətlərini tənzimləyir, fiziki və psixoloji çətinliklərə məruz qalan məktəbəqədər yaşlı övladlarını cəmiyyətə qovuşdurur.

7. Tədqiqat işində qoyulan mövzunun təhlili və araşdırılması göstərdi ki, Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqlarla aparılan tibbi, psixo-pedaqoji bərpa işləri aparılsa da, autizm spektr pozuntulu uşaqlarla işdə xüsusilə bir sıra problemlər mövcuddur. Autizm spektr pozuntulu uşaqların təlim-tərbiyəsinin həyata keçirildiyi zaman ailə ilə bərpa və psixoloji mərkəzlərdə əlaqənin yaradılmaması, elmi əsaslı təlim metodlarına üstünlük verilməməsi, ənənəvi bərpa proseslərindən daha çox istifadə olunması, peşəkar mütəxəssislərin azlığı, intensiv təlim imkanlarının məhdudluğu, beynəlxalq təcrübənin yetərli səviyyədə öyrənilməməsi və ya tətbiq olunmamması, uşaqlara individual yanaşmanın yetərsizliyi, təlim prosesinin bir çox ailənin büdcəsinə uyğun olmaması, təhsil imkanlarının məhdud olması, valideynlərə mütəxəssis dəstəyinin olmaması, valideynlər arasında maarifləndirmənin zəif olması, ailənin autizm spektr pozuntulu övladlarının maddi və mənəvi ehtiyaclarının ödənilməsindəki çətinlik kimi önə çıxan bir sıra amillər diqqətə alınaraq öz həllini tapmalıdır.

8. Tədqiqatı aparılan işin əsasında belə təkliflər verə bilərəm ki, xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqlarla aparılan iş sahəsində qanunvericilik strukturu və onlara göstərilən xidmətlərin idarə olunması prosesinin təkmilləşdirilməsi, eyni zamanda bu məsələnin həllinə daha çox maliyyə vəsaitləri ayrılmalıdır.

9. Xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqlar üçün ilkin səhiyyə, təlim-tərbiyə sistemində xüsusi təlim proqramları hazırlanmalı, onların həyata keçirilməsinə nəzarət

gücləndirilməlidir.

10. Autizm spektr pozuntulu uşaqlar üçün xüsusi araşdırma mərkəzləri yaradılmalı, yeni yaradılacaq ailə tipli, icma əsaslı təlim qruplarında xüsusi qayğıya ehtiyacı olan və autizm spektr pozuntulu uşaqların da məktəbəqədər təhsili həyata keçirilməlidir. Valideynlər üçün autizm spektr pozuntulu övladlarına kömək məqsədilə Azərbaycanın bütün şəhər və rayonlarında elmi əsaslı metodların istifadə olunduğu xüsusi tədris mərkəzlərinin fəaliyyəti təşkil olunmalıdır. Uşaqlarda autizm spektr pozuntusunun ilkin və ətraflı diaqnostikası aparılmalı, bu sahədə mütəxəssis hazırlığı həyata keçirilməli, daha sonra məktəb və digər problemləri həll edilməlidir.

11. Müvafiq sahə üzrə mütəxəssis hazırlığı ilə məşğul olan universitetlərin fənn proqramları müasir dünya standartlarına uyğun təkmilləşdirilməlidir. Autizmlə əlaqədar müasir bilik və bacarıqların ölkəyə transfer olunaraq tətbiq olunmasını əhatə edən çoxistiqamətli layihələr həyata keçirilməldir. Bu sahədə dövlət-özəl sektor əməkdaşlığının inkişaf etdirilməsi, bir sıra yaxın ölkələrin təcrübəsində olduğu kimi, autizmli uşaqların təlimi üçün aylıq müəyyən saat qarşılığında veriləcək maddi dəstəyin nəzarətli şəkildə müvafiq qurumlara verilərək, onlardan autizmli uşaqlar üçün keyfiyyətli məktəbəhazırlıq proqramlarının həyata keçirilməsinə nail olunmalıdır.

**Dissertasiya mövzusu üzrə müəllifin aşağıdakı əsərləri nəşr olunmuşdur:**


1. Eynalova, A.S. Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqların (XQEU) təhsil problemi // II Beynəlxalq müəllim yetişdirmə siyasəti Konqresi-Materiallar, 18-19 aprel, 2014-cü il, Bakı Qafqaz Universiteti, s.426-427.
2. Eynalova, A.S. Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqların (XQEU) təhsilə cəlb olunmasında sosial-psixoloji problemləri. BDU-Psixologiya jurnalı, Bakı, 2013, s.94-100.
3. Eynalova, A.S. Проблемы социализации детей с синдромом аутизма в Азербайджане // Науковий Часопис Національного Педагогічного Университету, Имени М.П.Драгоманова. Серия 5, Педагогічні Наукіі: Реалii Та Перспективи (Bunyck 62).
4. Eynalova, A.S. Fiziki və psixoloji məhdudiyyətləri olan uşaqların

tərbiyəsində məktəbəqədər xüsusi təhsilin rolu // II international scientific conference of young researchers, 27-28, April 2018, Baku, Azerbaijan, p.1552-1555.

5. Eynalova, A.S. Autism in Azerbaijan and Steps Ahead// "İmpact Azerbaijan", İssue 29, Baku, 2018, p. 24-25.
6. Eynalova, A.S. Azərbaycanda autizm spektr pozuntulu uşaqların ailədə məktəbəhazırlıq prosesinin təşkilində dövlət-özəl sektor əməkdaşlığı // Journals of Baku Engineering, University.- Number 2. Volume 2 (2017)
7. Eynalova, A.S. Otizmli Çocuğa Sahip Bir Anneye Uzaktan Egitimle Öğretme Becerisi Kazandırma // Antalya (Türkiye) II. Uluslararası Erken Çocuklukta Müdahale Kongresi, 29 Mart-01 Nisan, Türkiye 2018, s.58-59.
8. Eynalova, A.S. Autizm spektr pozuntlu uşaqların ailədə məktəbəhazırlıq prosesində görülən davranış problemləri və onların həlli yolları // Bakı Mühəndislik Universiteti, "Filologiya və Pedaqogika" jurnalı, 7-ci cild, № 2, 2023
9. Eynalova, A.S. Sağlamlıq imkanları məhdud uşaqların məktəbəhazırlıq mərhələsində ailənin rolu // "İnkluziv təhsildən inkluziz cəmiyyətə" II beynəlxalq elmi-praktiki konfrans, Bakı Slavyan Universiteti, 2024.
10. Eynalova, A.S. Autizmli uşaqların məktəbəhazırlıq mərhələsində ailənin rolu // Gənc tədqiqatçıların VIII Beynəlxalq Elmi Konfransı, 26-27 aprel, 2024-cü il, Bakı Mühəndislik Universiteti.

Dissertasiyanın müdafiəsi 17 may 2024-cü il tarixində saat 11⁰⁰-da Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 240 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu.

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 09 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:  09.04.2024
Kağızın formatı:  60x84
Həcm: 47035
Tiraj: 100